# Bayrağım mənim



Nazlı HACILI

Elin dəyanəti,iftixarısan,
Dalğalan üç rəngli bayrağım mənim.
Xalğın iradəsi,həm vüqarısan,
Dalğalan üç rəngli bayrağım mənim..

Qanlar bahasına ucaldın göyə,
Oğullar can verdi sülh olsun deyə,
Uğrunda hazıram hər an ölməyə,
Dalğalan üç rəngli bayrağım mənim..

Böyük öndərimiz çox çəkdi zəhmət,
Xalq da ona vedi layiqli qiymət,
Artıq müstəqildir bu şanlı dövlət,
Dalğalan üç rəngli bayrağım mənim..

Qeyrət sinvolusan, əzəmət dolu,
Keçdiyin yol mərdlik,azadlıq yolu,
Bəzə şərəfinlə ,sar sağı,solu,
Dalğalan üç rəngli bayrağım mənim..

Günəş şəfəqindən nur verdi sənə,
Göylər öz qoynunda yer verdi sənə,
Millət məhəbbətin gur verdi sənə,
Dalğalan üç rəngli bayrağım mənim..

Heç zaman kimsəyə baş əymə əsla,
Düşməni qınadıq,tən olduq dostla,
Bütün millətləri birliyə səslə,
Dalğalan üç rəngli bayrağım mənim..

Şəhid qanlarıyla boyanmış rəngin,
Ucal ucaldıqca,göylər çox əngin,
Heç zaman solmasın rəngin,ahəngin,
Dalğalan üç rəngli bayrağım mənim..

**Azad Azərbaycan.- 2022- ci il.- 30 dekabr.- S. 6.**